**VAHİD RZAYEV**

# Kainatlardandir YARANIŞIMIZ

Rzayev Vahid. Kainatlardandır yaranışımız
Bakı, «Nərgiz» nəşriyyatı, 2003, 56 sah.

-193 - 2003 © «Nərgiz», 2003. 079

*Ön söz*

*Müəllifin 3 hissədən ibarət ""Yaranış" haqqında sohbət" və "Ümidimiz Sənədir" adlı kitablarından sonra diqqətinizə təqdim edilən bu yeni kitabı da Böyük Yaradanın ona Diktə Etdiyi "Yaranış" Kitabındaki Deyimlərinin və qismən olsa da, İlahiyyat Elminin dərkiyatına kömək məqsədilə yazılmışdır.*

*Onun oxucularının bir sıra suallarına, özünün bir böyük gardaşı kimi cavab verirəm ki, o, həmişə Yer üzünün şöhrətlərindən qaçıb və əsas qayəsi insanların nədən ötrü bu dünyada yaşamalarının və öz İlkinlərinə Qayıtmalarının köklərini dərk etmələridir.*

*O, hər bir oxucusunun saflaşmağı, paklanmağı, Kamilliyə və Müqəddəsliyə Qalxmağı istəyindədir.*

*Fikrət Rzayev*



Bu yer üzü nə gündə? İnsanlar, dövran nə ağır gündə? Yer üzü müharibələrlə, qanladır, ümid arasında, ümidsizlikdədir, inam arasında, inamsızlıqdadır, çox saylı insanların bir anda yer üzündən qayıdılmasıındadır. Yer üzü zəlzələlərdədir, yer üzü silkələnmədədir, aclıqda, səfalətdədir, sular, dağıdıcı küləklər arasındadır; vulkanlar püskürmədədir; insanlar səfalətdədir, xəstəliklərə bürəlidir; ümid arasında, ümidsizlikdədir. 31.10.2002

*

Yer üzünün indiki halı acınacaqlı, minilliklərdən əvvəlki halı kimi acınacaqlı. Yaşamaq üçün döyüşmür, yaşatmamaq üçün döyüşür. İnsan yalanla, iftira ilə yaşatmamaq üçün döyüşür. Hakimlik üçün, yer üzünə sahib olmaq üçün döyüşür. Cahil, eşit: yer üzünə hakim olmaq olmaz, Sahibə sahib olmaq olmaz. 31.10.2002

*

Yaranmış canlı varlıq Yerdə iki halda əzizdir: bir bu dünyaya gələrkən əzizdir, bir də dünyadan göçərkən əzizdir. Göylərdə iki halda bəşəri əzizləyərlər, bir bu Yerə Gələrkən, bir də Göylərə Köçərkən. 01.11.2002

*

Başqa yerə, başqa şəhərə getməli olsan, oradakı insanların biri-birinə münasibətini bilmək istəsən, o şəhərin, o ölkənin bazarına yox, məzarlığına get, məzarlığına bax. Dirilərin biri-birinə münasibəti o ölkənin məzarlığında da görünər. O məzarlar qarışıq haldadırsa, o şəhərin, o ölkənin diriləri arasındakı münasibətləri də qarışıqdır, dirilərin biri-birinə münasibəti e'tinasızıqladır, biri-birinə diqqətsizliklədir.

O şəhərin, o ölkənin məzarlığındakı məzarlar bir cərgəlidirsə, ardıcıldırsa, deməli, o şəhərin, o ölkənin insanları biri-birinə mehribandır, diqqətlidir, qayğılıdır, biri-birinə sevimlidir.

Güzgü fərdi göstərər, məzarlıq xalqı göstərər; yaddaş tarixi göstərər, tarix xalqı göstərər. 01.11.2002

*

Dedi: "**Mən Yaratdım, İlki Yaratdım. Kainatları İlkin Yaratdım. Kainatlarda məkanların ilkini Yaratdım. Düzmədim məkanları, bir ardıcıllığa Düzmədim. İlkdən Səs səsləndi, Böyük Səs səsləndi. Səslə birlikdə kainatlar Yarandı, kainatlarda məkanlar məkanlaş dı. Bir Vəhdətdə, bir gözəllikdə məkanlar məkanlaşdı. Durmadı, məkanlar durmadı,**



**bir xətdə durmadı. O məkandan** (*Yer planetindən*) **bax, İşıq** (*Günəş*) **səmtinə bax. O İşıq təyinlənib, öz yerində hərəkətlə təyinlənib. Ətrafında məkanlar** (*planetlər*) **o İşıq ətrafında hərəkətdə təyinlənib. Məkanlar durmaz bir xətdə. Dursa məkanlar bir xətdə, – öndəki İşıqda, düzümdəkilər isə əbədi zulmətdə. Mən Yaranışı İşıqdan, İşığa Yaratdım, Yaranışı zülmət, qaranlıq arasına Yaratmadım**". 01.11.2002

*

Gəlişimə sevinmədim, Gedişimə sevinəcəyəm. 01. 11. 2002

*

Nə dedim, kainatların özündən, kainatların elmini dedim. Bütün elmlərin kainatlardan, İlahiyyatın Kainatlardan olduğunu dedim. Üzümü Kainatlara tutdum. Səmtə, cəhətə tutmadım. Yaradanımıza (Şimali-Şərqə) üzümü tutdum. Mənmi tapdım Yaradanımızın Məkanını? Yox. Yaradanımız Bəyan Etdi o İşıq Məkanını. 01. 11. 2002

*

İkiyə bölünmüş dünya, həqlə həqsizlik arasında bölünmüş dünya. İftira və yalan arasında bölünmüş dünya. Yaxşı ki, bu bəşər

yer üzünə hakim olmaq istəyindədir, Kainatları bölmək gücündə deyil. 01.11.2002

*

Ey cahil bəşər, uzun illər yalan dedin, zorakılıq etdin. Əsr dəyişildi, yeni əsr gəldi. Yeni əsr cəzalı başladı, cəzalı gəldi.

Yenə də sizə bəşəri baxışda baxıram. İndi yer üzü yenə də iftirada, yalanda, bəşər bəşəri aldatmağa çalışınada. Yalan deyə bilirsə, yalanına sevinmədə. Qafil bəşər, oyan, indi etdiklərin sənin sabahındır. Bu əsri belə başlangıçla başladın, yer üzünə, bəşəriyyətə yenə, yeni cəzalar istədin. Bilirsənmi nəticələri nə olacaq? Müalicəsi çətinliklə olan xəstəliklər olacaq, böyük binalardan ölülər daşınacaq, ağızlar bağlı olacaq, sular zəhərlı olacaq, xəstəliklər hava ilə daşınacaq. Dayan, bəşər, dayan, düşün, bəşər, düşün. Yalanda, zorakılıqda, iftirada xilas yox. Əkdiklərindən nəticəsizliklər olacaq, böyük aclıqlar olacaq. Bu gün – sabahın, sabahın – qayıdacağın. Qayıdacağın yerdə Hakim qarşısında onda dayanacaqsan.
01.11.2002

*

Yaradandandır Yaranış, Yaradan olmasa idi, yox idi Yaranış. Muhitdədir Yaranış, muhitlədir



Yaranış. İlk İşıq, sonra O İşıqdan Zərrə. Zərrə payıilədir hər Yaranış. İşıq yoxsa, Zərrə yox; Zərrə yoxsa, Yaranış yox, Yaranacaq yox. Yaradanımız Dedi ki, "**Yaranışdandır yaranış, Yaradandandır Yaranış. Yaradandır Yaradan, yaranmışdır yaranan**".

Yaradan yoxsa, yaranış yox. Yaradan yoxsa, kişi-arvad, erkək-dişi yox. Yaradan yoxsa, sevinc yox, kədər yox, yaranış yox, qayıdış yox.

"**Yaradandandır Yaranış, müddətdədir yaranış, Əbədiyyətə qayıdandır yaranış. Bir də yox, yenidən yaranacaqdır yaranış. Yaradandır Əbədi**".

*

"Yaranış"dadır elmimiz, Elmlədir “Yaranış”. Nağıl yox, rəvayət yox, zorakılıq yox, Elmlədir “Yaranış”.

*

Ey insan, sənin öz dilin, öz səsin. Quşların da var öz dili, öz səsi. Heyvanatın da var öz dili, öz səsi. Ağaçların da öz səsi. Suların, dalgaların da öz səsi. Dağların, dərələrin də öz dili, öz səsi. Kainatların da var öz dili, öz səsi. Cəm yaranmış Ahəng Səsi əhatəsindədir.

Ətrafında hər nə varsa, öz dilində, öz səsində. Bunları sən bəşərə dedim, göstərməyə

çalışdım. Nədən Yaradana, Deyimlərinə qəribə baxırsan; nəsə axtarmadasan? Nədən Yaradanımızı "Lal" kimi bilmək istəmədəsən?02.11.2002

*

Dil sənin deyil, dil mənim deyil, dil bir xalq üçün dil deyil. Dili, dilçiliyi xalq yaratmır. Dil, dilcilik Kainatlardan, İlkdəndir, İlk Yaranış anındandır. Əgər dil bir xalqa mənsubsa, bas elmlər hansı xalqa məxsus?

Dil umumi, elm umumi, Kainatlardır ümumi. Yaradanımıza xitab edərkən hər insan, hər xalq öz dilində xitab edər. Əgər dilcilik təkçə bir yer üzü, bir yer parçası üçünsə, onda Kainatlara necə xitab edək? Yaradanımızı necə çağıraq, hansı dildə çağıraq? Xalqlar çox, dillər də çox.

Dillər, dilcilik Yaradandan Yaranıb. Yaradanı çağırırıqsa, öz dillərimizdə çağırırıq. Dinlər yox idi, bəşəriyyət isə var idi. Bəşəriyyət Kainatlardan uzaqlaşdıqca, "Göndərilənlər" Göndərilər. 03.11.2002

*

Göndərilənlər Yaradanı dedilər, bəşərdən inkarı eşitdilər. Fərqləri bəşər yaratmayıb, bəşərə fərqlər aşılanıb. 03.11.2002

*



Yaradanımızdan qorxa bilmədim. Nə qədər çalışdımsa da, qorxa bilmədim. Çünki, O, qorxulu Deyildi, qorxa bilmədim. O, Mehriban, Qayğılıdır; çox-çox Rəhmli, həmişə Sevinçli, Yaradıcı.

Baxdım, qorxmaq istədim, qorxa bilmədim. Qaranlığını axtardım, İşığını gördüm ki, Ondan qorxa bilmədim.

Yaradanımızdan qorxa bilmədim. O, qorxulu deyildi ki, qorxa bilmədim. İnsan yer aləmində elə işlər edə bilər ki, onlar Kainatlardan bağışlanıla biləndir. Amma elə etdiyi işlər də var ki, onlar bağışlana bilməyəndir. Əgər hər bir səhv bağışlanan olsa idi, ilkdən Ağ Geyimlilər arasında bağlılıqlar pozulmalı idi. Kainatlarda bu ardıcıllıqların pozulması Kainatlardan qarışıqlıqların başlanması deməkdir.

Yaradanımız Bağışlayandır, amma baxar ki, nələri Bağışlayandır. 04.11.2002

*

İnsanlardan qorx, onlara hakim olmuş qaranlıqlardan qorx, məkrdən, paxıllıqdan, məqsədli aldatmalarından qorx, alıb-satmağından qorx. Yaradanımızdan, Ağ Geyimlilərdən qorxma. Çünki, onlar qorxunun əvvəli deyil, qorxulu deyil. 04.11.2002

Sev, sev, sev sən. Ətrafında gördüyün bütün varlıqları sev sən. Özünü sevmə, cəm varlıqları sev. Özünü yox, cəm bəşəriyyəti sevə bilsən əgər, onda Görəcəksən. Bəşərdəki məkri, məkrli olan fikrini, yalan dilini onda görəcəksən. Özünü sevsən, koranə olacaqsan, özün-özünə maneə olacaqsan, paxıllaşıb paxıl olacaqsan. Özünü sevib, ətrafına ziyankara dönəcəksən. Öz paxıllıqlarının arasında olub, özünə məhv istəyəcəksən. Sev, sev, sev, cəm varlıqları sev. Ətrafını, kainatları sev. Sevmək qayğılı olmaqdır, mehriban olmaqdır, diqqətli olmaqdır. Sevgi ilə məhəbbəti qarışdırma. Sevmək ayrı, məhəbbət ayrı. Sevməsək, məhəbbətə çatmarıq. 04. 11. 2002

*

Sev, vətənini sev, onu satma, sev. Qoru onu, sev. Əllərə vermə vətəni, sən öz vətənini sev! Qorumasan, qorunmayacaq, məkrli gözlərdən uzaq olmayacaq. Vətən sənin vətənin, bu vətən üçün yaranmısan; bu ərazinin vətəndaşı olmaq üçün göndərilmisən. Ona görə öz milliyətin adında, öz ərazin üçün yaradılmısan. Müəyyən Vətəni olmayanlara, heç yerdə Vətən yoxdur. Sün'i Vətən düzəltmək istəsələr də, Vətən yoxdur. Müvəqqəti məskunlaşar, amma Öz içindən gələnlər ilkdən olduğu kimi səni vətənsizliyə



daşıyar. Sev vətəni, sev. Qoru vətənini, qoru, ərazini qoru. Ərazini Yaradan sənə ayırıb, səni o vətən üçün, o vətənə Yaradıb. 04.11.2002

*

Yer üzündə din çox, hələ də biri-biri arasında umumi bir dil yox. Yaradan bölünüb, milliyətlər arasına, saylar araşına bölünüb. O isə İlki kimi Tək.

*

Əgər "**Yaradan**" dedikdə, günahkar oluramsa, onda yer üzündə cəm bəşəriyyət günahkar. Cəm yaranmış bəşəriyyət öz dilində Yaradanına xitab edib Yaradanını çağırırsa, onda cəm bəşəriyyət günahkar. Əgər cəm bəşəriyyət günahkarsa, onda mən də günahkar. "**Yaradan**" demək, Yaradanımızı çağırmaq günahmı? 06.11.2002

*

Yaradan yoxsa, sən ola bilməzsən. Olsan belə, Yaradansız ola bilməzsən. Yaradan Yaratmasa, sən Yaranış arasında ola bilmərsən.

Yer üzündə özünü bioloji yarada bilsən belə, varlıq kimi əbədi ola bilmərsən. 08. 11. 2002

*

Qidalanmamaq bir müddətədir. O müddətdə azad olacaqsan, maddi aləmdə ikən özünü

Əbədiyyətə hazırlayacaqsan. Bu aləmdəykən, o Aləmə hazırlanacaqsan. O Aləmdəki Müqəddəs Ağ Geyimlilərlə bir cərgədə durmaq üçün hazırlayacaqsan. Çünki, Orada sən qidalanmayacaqsan. Orada əkin yox, əkinçi yox. Əbədiyyətdə istehsalçı yox, idxalçı, istehlakçı yox. Çünki, orada maddi aləm yox, bioloji varlıqlar yox. Ora Əbədiyyətdir, yer aləmində topladıqlarınla qayıdışındır. Yeni Yaranışın yaranması üçün qayıdışındır. 08. 11. 2002

*

Vətən məni sevməsə də, bu vətən yenə də mənə Əzizdir. Bu insanlar, indiki insanlar, məni dərk etmək istəməsələr də, yenə bunlar mənə Əzizdir. Ardımızca ardıcıllarımız gəlir, onlar da bunlar kimi yenə də mənə Əzizdir. Bu Vətənə Əziz kimi baxdım, çünki cəm bəşəriyyət mənə Əzizdir. Yer məkanının Özü mənə Əzizdir. Kainatlar Əziz, hər məkan mənə Əzizdir. Əvvəlim və sonluğum Mənə Əzizdir.

*

Bəşər, cəm canlı varlıqlar güclüdür. Güc canlının varlığındadır. Amma güc əsasən sinədədir. İnsan (*hər hansı idman növü ilə bağlılığı olmadan*) əlbə-yaxa döyüşür və yorğunlaşır. Son gücünü toplayan insan sinə-sinəyə vuruşur.



Sinəsi ilə vuruşur. Heyvanat aləmi də vuruşur, suda balıqlar da vuruşur. Güc tükənəndə onlar da sinə-sinəyə vuruşur. Güc sinədə, İşıq sinədədir. Yaranışa ayrılan yaranış İşığı sinədədir. O İşığa "Ruhi İşıq" da dedilər. Necə də düz dedilər.

Yaranış Yaranmazdan əvvəl onun İşığıdır, Yaradanın Yaranışa Ayırdığı bir İşıqdır. Bax, ey bəşər, bizdən əvvəl bəşəriləşmiş bəşərə dedilər: "biri-birinizə arxa çevirməyin, biri-birinizi arxadan vurmayın". Ona "namərd" dedilər. Yə'ni "mərdlikdən uzaqdır" dedilər.

Bax ki, öndə İşığımız, bizə yol göstərən İşığımız bizdədir; bizimlədir Yaranış İşığımız. Qara Varlığın Özü İstəkləri ilə, arxamızda ardımizca gəlir. Arxadan vurma, Qara varlığa xidmətçi olma. Yalan danışına, məkrli olma, sən Qara varlığa xidmətçi olma. Yalan deyib aldatma, sən Qara varlığa xidmətçi olma. 20. 09. 2002

*

Yaradanımız Bioloji Varlıq deyil ki, Yarada Bildiyini Əlləri ilə Yaratsın. Hər planeti Əlləri ilə tək-tək Yaratmağa Başlasaydı, Kainatlar hələ də başa gəlməyəcəkdi; nə Ağ Geyimli Mələklər, nə də canlı varlıqlar hələ də mövcud deyildi. Ətrafında hər gördüyün yaranmışdır,

Yaradandan yaranmışdır. Yaradanımızın İşığından, ilkdən bir Zərrə Payından Yaranmışlar yaranmağa başlamışdı. 20. 09. 2002

*

Cəm varlıqlar, cəm Yaranmışlar nəmliklə əhatəlidir. Kainatlar arası nəmliklədir. Yaranışa İşıq Zərrələri hər bir varlıqdan keçə bildiyi kimi, İlkdən, ilk Yaranışdan, hər bir yaranış-varlığı arasına da (*nisbi*) nəmlik, "qədər" kimi, maneəsiz keçir. Nəmlik qədəri təyinlənməsə idi, varlıqlar adicə bir quruluqdan alovlanardı. Mütləq (*absolyut*) quruluq yoxdur.

Mufel peçində "Quru qalıq" qədəri təyinlənir. Yüksək temperaturda quruma sür'ətlə aparılsa belə, yenə də qalıq qalacaqdır və o yüksək temperaturlardan alışma baş verməyəcəkdir. İstinin özündədir nəm. Kip, hermetik bağlı peç daxilinə də nəmlik qədəri maneəsiz keçir. Zərrə hərəkətinə maneə olmadığı kimi, nəm hərəkətinə də maneə yoxdur. Ona görə ki, nəm hər varlıqdan keçir və o varlıqlara bərabər bölünür.

Güclü yağışlardan sonra buxarlanma başlayır. Buxar yer səthindən ayrılır, buludlaşır. O bulud nisbi nəmlə bölüşməsə idi, Yer kürrəsinin



mövcud olduğu bu müddətlər ərzində qalın buludlarla davamlı örtülü olardı.

Günəşin varlığında və səthində də bərabər qədərdə nəmlik mövcuddur. Hər varlıq arasında bərabər bölüm mövcud olmasa idi, Kainatda varlıqlar, planetlər arası Hakimliklər-Məhkumluqlar mövcud olardı. Qədərlər arasında ikən, qədərsizliklər mövcud olardı.

Kainatlarda hər bir planet bir Vəhdətdə hərəkətdədir. Nəmlik qədəri mövcud olmasa idi, su hövzələri mövcud olmazdı. Sulardan ayrıntılar olmasa idi, hava qatı mövcud olmaz idi. Hava qatı mövcud olmasa idi, yaranmış canlı varlıqlar mövcud olmaz idi (*oksigenin özü belə, varlığın özünü hifz edəndir*).

Bax ki, Yaradandan yaranmış bəşər. Hər bir mövcudiyyət Yaradanın Özündən mövcudiyyət. Yaradanın Özü Mövcud ki, ətrafımız mövcudiyyətlərlədir. 25.09.2002

*

Dünyaya baxanlar bu dünyanı yalan dedilər. Nə gördülər ki, dünyanı yalan dedilər?

*

Cavid Əfəndim dedi ki: "Cücə bir dahi, yaxud, dahi bir cücə". Əfəndim, nə böyük bir

baxış. Sən Dahi idin ki, Dahi baxışınla baxdın. Baxdın və bu dünyada əbədi qaldın.

«Cücəni dahi, Dahini isə cücə» etdilər.

Dahilər özlərinin dahilik baxışından baxarlar. Qəribədir, dahilər çox sadə olurlar, bəlkə də dahi olduqlarından. Onların sadəliyinə qəribə baxarlar. Amma yenə də onlar Hüseyn Cavid kimi dahiliyində qalarlar. 26.09.2002

*

Yaradanım yaratdığına söz Vermir. Yaradanım Son Yaratmır, sonuncunu Yaratmır. Yaradanda heç bir varlıqdan məsləhət Almır. Məsləhətlə Yaratmağa başlasaydı Yaradan, inan, ey insan, heç sənin özün belə yarana bilməzdin. Nə Yaradırsa, Özü Yaradır, niyə Yaradırsa, onun üçün Yaradır. Nəyi Yaradırsa, onu bəşərə çatdırmaq üçün Yaradır. 28. 09. 2002

*

Sevgim tükənərmi? Sevgim tükənməz! Sevgini biz yarada bilmədiyimizdən, sevgi tükənməz.

Sevgim tükənməz. Sevgi qurtarmaz. "Sevgilər yoxdur" deməyə dilim gəlməz. Sevgisiz bu həyatı yaşamaq olmaz. Sevgi yox imişsə əgər, bəs nədən "sevgini" yadından çıxara



bilmirsən? "Sevgini" sevə bilənlərə dedim mən, sevgini "bilənlərə" dedim mən.

*

Sevgi nə idi ki, gəldi? Bəs nədən o sevgi yox olmadı? Nifrət oldu, bəs, sevgi nədən yox olmadı? Sevmək üçün, sevgi üçün yaranmışdıq ki, sevgi yox olmadı. Sevgi bəşərə aiddir, sevgi bəşərlə bəşər arasındadır. 28.09.2002

*

İstəklilər bu dünyada çox olacaq. Amma "**bu yola**" yalnız seçilimişlər seçiləcək. O seçilmişlər qalacaq. İstəklilər olur ki, seçilənlər də olsun. 28.09.2002

*

Niyə eşitmirsən səsimi? Səsım bu dünyadadır. Nədən sən eşidə bilinirsən səsimi? Eşidənlər eşidəcek, sən indi eşit səsımi. 28.09.2002

*

Yaranışdan, Yaranış arasında idin. "Yaranış"la axtar özünü. 8.09.2002

*

Dahini tənqid etmək üçün yenə də Dahi gərəkdır.

*

Yaradanım, Bağışla Yaratdıqlarını. Özün Bağışla onları. İşığına tez Qovuşdur ki, cəm Yaratdıqların İşığın əhatəsində Bağışlansınlar. İşığında İşığınla Bağışla ki, yaratdığın Qaranlıqlara çulğalanmasın. İşıq əhatəsində qalsın ki, Qaranlıq onları çulğalamasın. 28.09.2002

*

Yaradan Qaranlıq arasına İşıq Saldı, İşıq Yardı. O, Yaranışı Özü Yaratdı. Biz istədikmi? Yox, Yaranışı Özü Yaratdı. 28.09.2002

*

Nə düşdü, ay Fikrət, nə düşdü? Taleyimizə İşıq düşdü. İşıq üçün gəlmişdik ki, taleyimizə İşıq düşdü. 28.09.2002

*

Görməsinlər, bizi görməsinlər. Qaranlıqla baxanlar bizi Qaranlıqda görməsinlər. İşıqdayıq ki, bizi Qaranlıqda görməsinlər. İşıq görsünlər ki, Qaranlığı heç vaxt görməsinlər.

28. 09. 2002

*

Hava qatını görürsənmi? Axı o, mövcuddur, görgünən. Yaradanı görürsənmi? O, Mövcuddur Görgünən. Qalaktikaları, Meqaqalaktikaları görürsənmi? Onlar mövcuddur, Görgünən. Yaradan Məkanını görürsənmi? O, mövcuddur, Görgünən. Yaradan məndə deyil, səndə deyil. O, Mövcuddur, görmək İstə ki, Görgünən. 28.09.2002

*

Deyənlər dedilər ki, "Yaradan hər birimizdədir". Cahil, Yaradan nə qədərdə, nə saydadır? O, Yaratdığına Sığa Bilərmi? Bəşərdə nə qədər məkr var, Yaradan Məkrə Sığa Bilərmi? Tək olan Yaradan say hesabına Sığa Bilərmi?

28.09.2002

*

Ey qafil insan, Yaranışdan yaranmısan. Yaranışa "oxşarında" Yaranacaqsan. 28.09.2002

*

Çox qürrələnmə ki, bəşərsən. Ətrafındakı canlı varlıqlara bax ki, çox qürrələnməyəsən bəşərsən. Yaradandan bəşər kimi Yaranmısan. Bəşəriliyini saxla ki, insanlığını saxla ki, bəşəriliyinə çox qürrələnmə ki... 28.09.2002

*

Ey Zərlər, Azərlər, Azərilər. Ey Arianam-Bəycanlılar! Siz İlkdən ilksiniz. Siz Yaradan Baxışındasınız. Siz Yaradan İşığı Əhatəsindəsiniz. Özünüzü ucuz tutmayın, biri-birinizə e'tinasız olmayın, İlkinizi tanıyın, yaddaşsız

olmayın. İşıq pərəstlərik biz. İşıqsız Yaranış varmı? Yarasalar İşığı görə bilərmi? Yaranış İsti və İşıqdandır axı. 28.09.2002

*

İlahiyyat odur ki, Kainatların ümumi Elmidir. İlahiyyat o deyil ki, bir Fərdin həyat yoludur, Səyahətləri və Yaşamı yoludur. İlahiyyat – Kainatlardan, yaranış – Bir Yaradandan. Çünki, yaranırıq Yaradandan.

*

Cavid əfəndim dedi ki, "Həyat var ki, ölüm qədər kədərli. Həyat var ki, ölümdən də dəyərli". O həyat ki, "Ölümsüzdür" – Dəyərli. Nə üçün yaşadığını bilməyənlərə – Kədərli.

06.10. 2002

*

Darıxma, darıxma, darıxma. Bir başlangıç, bir də son var, darıxma. Qaranlıqda İşıq yoxdur, darıxma. Qaranlıq arasına İşıq düşər, darıxma.

*

Ağ geyimlilərdən (*mələklərdən*) bə'ziləri kainatlarda azad hərəkətdə idilər. Varlıqları Müqəddəs İşıqdan paylı olduqlarına görə və Kainatda mövcud olan planetlərlə bir İşıq bağlılığında, bir Vəhdətdə olmağı səbəbindən, onlarda belə bir güman yaratdı



ki, onların özləri də Yaradıcılıq gücündə, sərbəst yaratma qabiliyyətindədirlər. Düzdür, yaranış arasında o Ağ geyimlilərin, o mələklərin hər birinin ayrı-ayrı icraat funksiyası vardı. Bu isə əsas vermirdi ki, özlərini Yaradan qədərinə qaldırıb, Onunla bir bərabərlikdə tutsunlar. Belə bir düşüncəyə gəlmələrinə isə səbəb var idi. Yə'ni, heç bir hal səbəbsiz, heç bir səbəb halsiz deyil. Çünki Yaradanın Yaratdığı hər bir yeni yaranışın Özü Müqəddəs Yaranışın Özündən başlayırdı. Müqəddəslik Öz Kökünə dayandıqca, kainatların (*qalaktikalaıın, meqagalaktikaların*) işıq axımı daha da səlis, daha da rəvan axıcılıqda olurdu və bu birlik hərəkəti daha da güclənirdi. Qara Varlıq isə İşıqdan yaranmış hər yaranmışın Müqəddəs İşıq əhatəsini məhdudlaşdırmaqla kainatlar arasına bir Qarışıqlıq gətirməyə, rəvanlığı, ardıcıllığı pozmaq üçün çalışmağa başladı. Bununla Yaradanın İlk Müqəddəs İşığı ilə Qara Varlıq arasında olan fərq ilkin olaraq üzə çıxdı. Böyük Yaradan isə o Ağ geyimlilərin özlərini bu cür fərqləndirmiş qisminə Bəyan Edir ki, "Mən Yaratdım, ilki Yaratdım, İşığımın qədəri ilə İlki Yaratdım. Ovalı (*Ellipsoid, yumurta şəklində olan Kainatı*) İİkin Yaratdım. Oval arasına o məkanları İlkin Yaratdım. Bir vəhdətdə olan ardıcıl hərəkətləri İlkin Yaratdım. Mən Yaradanam, yaranmışları Yaradanam. İlk müqəddəsləri müqəddəs İşıq payı ilə İlkin Yaratdım. Kainatlarım arasına Azad Yaratdım. Öz Təzahürümdə, Öz Oxşarımda

Yaratdım. Yaradanam ki, ilk yaranmışları, Müqəddəslikdən müqəddəs Yaratdım. İlkləri İşıq Payımdan Yaratdım. Sizləri Yaranış arasına bir Vahdətə, bir icraata Yaratdım. Mənim İşıq Payımı Özünüzdə özünüzlə bildiniz. Özünüzdə özünüzə o İşıq Payımı güc bildiniz. Yaradan Mən, yaranmışlardır yaranlar".

*

Məhəbbətlə, məhəbbətdən dəli olmaq olar. Yaradana Qovuşmaq istəyi ilə dəli olmaq olmaz. Yaradana Qovuşmaq istəyi kamilliklə, kamillikdə olar.

*

Canlıların, bəşərin bioloji ölümü o zaman baş verir ki, ürək döyüntüsü zəifləyir və dayanır. Bə'zən insanlar belə deyirlər ki, "Yaradıcı ürəyimizdədir, varlığımızdadır". Yox, bəşər, bu, yanlış anlamdır. Əgər Yaradan, Tanrı, Allah Yaratmış Olduğu canlı varlığın varlığına Sığırsa, belə çıxır ki, nə qədər bəşər sayı varsa, o say qədərində də Yaradan, Tanrı, Allah olmalıymış? Bəs, əsl Həqiqəti necə başa düşək, ey bəşər? Bioloji canlı varlıq ölümlədir, Yaradan isə Əbədidir, Birdir, Təkdir. Yaradan yaranmışın varlığına Sığmır, Sığmazdır. "**Yaranmış hər bir varlıq Yaradan Varlığına sığar. Yaradanın İşıq Payından yaranan, Yaradı-**



**cının İşığına qayıdar ki, Yaradanına Qovuşar**".

Yaradanın Məkanından hər an cəm kainatlara İşıq Payı pay-pay (*kvant-kvant*), zərrə-zərrə yayılır. Yaradanın işıq Payından kainatlar paylı olmasa əgər, onda canlı, cansız yaranış olmaz. Hər canlı o zaman ömrünü başa vurur ki, Yaradan Məkanından ona ayrılan İşıq Payının axmı dayanmış olsun.

İnsan varlığında ürək döyünər, döyüntüsü nəbzlə bəlli olar. Nəbz kainatlara bağlıdır, kainatlara yayılan İlahi İşıq qədəri ilədir. Nəbzimiz Yaradan Məkanından yayılan İşıq Payının fasilə-fasilə (*kvant-kvant*) yayılma ahənginə uygun olaraq döyünər.

Ona görə də, Can Alan (*Əzrait*) canlı varlığa ölüm anına yaxın olan ərəfədə gəlir. Gəlir və gözləyir. Bəs, o Can Alan nəyi gözləyir, kimi gözləyir, Yaradandan İcazəmi gözləyir? Yox.

O, bəşərə, bəşərlərə ayrılan İşıq Payının paypay, kvant-kvant axmının dayanmasını gözləyir. O an çatar, Yaradan Məkanından o bəşərə vücudu canlı edən İşıq Payının dayanmasını gözləyər. O işıq Axmı dayandımı, o Can Aparan ilkdən o canlıya ayrılan Yaranış İşıq Payını (Ruhi İşığı) Əbədiyyətə Aparar. Düşün, bəşər, Yaradan – O, Əbədiyyətə Aparan yenə də O. Yaranışa, Yaşayışa və Əbədiyyətə hökmü Verən yenə də – O. Yaranışı Yaratdığı səbəbindən,

Hakim Ağ geyimli mələklər yox, qeyri-birisi yox, ancaq o Böyük Yaradanımızdır.

Yaradan Məkanını dərk etmək istiyirsənsə, bil ki, Yaradan Məkanına canlı ikən qovuşmaq istəyin qanında, nəbzindədir. Ürəyin hər dəfə vurması Yaradan Məkanından kainatlara an-an İşıq zərrələrinin axın tezliyi ilə bağlıdır və Yaradan İşığının pay-pay göndərişinə müvafıqdir.

Varlığımıza Yaradan Sığmaz, Onun İşığı ətrafımızdadır. Yaradan bizlədir, bizdə deyil. Yaradan İşığı sənlədir ki, məndə deyil. Yaradanın Nur zərrələri bizim ətrafımızdadır ki, Yaradan bizlədir, bizdə deyil.

*Qeyd: İnsan ürəyində məhəbbət var. Bu, inkar olunmazdır. İnsan ürəkdən sevə bilər: Vətəni sevə bilər, övladlarını sevə bilər, ata-anasını, yarını sevə bilər, əşyalara, varidata bağlana bilər. Gözəlliklərə bağlana bilər, ətrafındaki təbiətə bağlanıb təbiəti sevə bilər. Mən insan ürəyində Yaradanı axtardım, insan ürəyində, qanında İşıq zərrələrini gördüm, amma Yaradanın varlıqlara Sığdığını görə bilmədim.*

*

Soruşub bəşər, soruşacaq bəşər: "Nədən Yaradanı mən görə bilmirəm? ".

– Çünki, o bəşər, bu bəşər, maddi aləmə bağlanıb bəşər. Yaşamaq üçün yaşayır bəşər.

Kainatlardan ayrı düşən insan – kainatlara qovuşınaq istəməyən insan. Kainatlardan uzaqlaşıb, yer aləminə bağlanıb insan. İlahiyyatı – o Böyük Elmi, öz anlam qədərlərinə uyğunlaşdırıb bu bəşər. Necə anlamaq istəyibsə, onu o anlama uyğunlaşdırıb bəşər. Əsl İlahiyyatdan, Müqəddəslik anlamından özünü uzaq edib bəşər. Kainatlardan uzaqlaşıb, materialistləşib, ateistləşib bəşər. "Tanrı", "Yaradan" demək istəyənləri boğub, öldürüb bəşər, insanları Kainatlardan uzaqlaşdırıb maddi aləmə bağlayan bəşər, Tanrını fərqlərdə axtaran bəşər. Maddi aləmin dəyərlərində Tanrısını dəyərləndirən bəşər. Kainatlardan, İlahiyyatın elmindən uzaqlaşan bəşər. Biri-birinə e'tinasız olan bəşər, biri-birini aldadan bəşər, yer aləminə bağlanmış bəşər, qan içərisində olan bəşər. Yaradanını axı necə görə bilər bu bəşər.

12.11.2002

*

Nə sərtlər olmalı idi? – bilmədim. Olanı, olduğu kimini mən necə deməli idim? – bilmədim. İlahiyyat Elmi hansı sərtləri əhatə etməli idi?– bilmədim. Yaradanı nə ilə uyğunlaşdırmaq istəyirdilər? – bilmədim. Mən ateist, materialist, darvinist, sosialist, kommunist, eqoist, ehkamist olmalı idimmi? – bilmədim. Yaradan Adını kitabda görüb, nədən karıxdılar? – bilmədim. "Yaranış" kitabı hansı sərtləri əhatə etməli imiş?

– bilmədim. İlahiyyat Elminə yer üzündə, nə kimi sərtlərin verdiklərini, onların harada olduğunu, harada yazıldığını bilmədim. Dillərində "Yaradan" deyənləri, lakin Yaradını fərqlərdə yenə də axtaranları gördüm. Yaradan Varlığını hələ də dərk edə bilməyən o insanı gördüm; düşünmək, dərk etmək əvəzinə, bu dünyada işini bitmiş hesab etdi? – bilmədim. 12.11.2002.

*

Torpaq Yaradıcı yox, mühitdir. Əgər torpaq Yaradıcı olmuş olsaydı, bəşəriyyət torpağa, materiyaya səcdə edərdi. Yer kürrəsi Yaradıcıdırsa, onun üzərində ola-ola yalan danışarlarmı, qan tökərlərmi, iftira yayarlarmı, zorakılıq edərlərmi, zibil tökərlərmi? Əgər torpaq Yaradıcısa, ətrafımızdaki planetlərin Torpaqları nədən bir bəşəriyyət yaratmırlar, yaranışı yarada bilmirlər?

Yaradanın onu necə Yaratdığını düşünmədi bəşər. Heç fikirləşmədi bəşər ki, Yaradan kişi-qadın, erkək-dişi arasında Dayanarmı? Bu, mümkünmü? Yox, bəşər, Yaradan Cəmi Yaradar. Cəmləri cəmlər arasına Yaradar. Özü bir İşıqkən, Yaranışı Yaratmaq üçün Zərrədə İşıq Payı Ayırar. Hər yaranış Zərrədən, zərrə payından yaranar. Zərrə yoxsa, Yaranış yoxdur.



Yaradanın Təyinatı Zərrədə yoxsa, yaranış da yox, yaranacaq da yox. İnsan Yaradıcısız materialdan, materiyadan yaranmır. 22.11.2002

*

Yaradandan qorxmaq lazım deyil, çünki O, qorxulu deyil. Heç eşitmədim ki, bəşər desin "Yaradandan qorxdum". Ümid etdi, insana demək istəmədiklərini Ona dedi, Ona inandı, Səcdəsində durdu, amma Ondan heç qorxmadı. Üzünü kainatlara tutdu, kainatlardan isə heç vaxt qorxmadı. İnsan insandan qorxdu, amma Yaradanından heç qorxmadı. İnsan yalandan, iftiradan qorxdu, Yaradandan isə qorxmadı. Çünki, O, Qorxulu deyildi ki, Yaradanından qorxmadı.

*

Müqəddəsini Çarmıxa çəkən insan – öz vəhşiliyinə sevinən insan, dönüb "Ondan" xilas istəyən insan. Mə'bədlər tikib İşıq Qarşısında işıq yandıran insan. İşıq onların arasında idi, o İşığa koranə insan. O İşığa işıqla qovuşmaq istəyən insan. Qaranlıqda qalan, İşığa qovuşmaq istəməyən insan.

*

"Tanrı" deyənləri öldürdü insan. Hər birinə bir bəhanə axtardı, — koranə insan. Tanrının Bir olduğunu dərk etmək istəməyən insan. Tanrını Saylara bölüb biri-birindən üstün bilən insan.

25.11.2002

*

İnsandan fikir eşitdim: "Yaradanı görmək olmaz, görənin gözləri yanar ki, Yaradanı görmək olmaz". Çox düşündüm, dedim ki, "Yaradanımız yaranışı Yaradar, Yaratmadan əvvəl də, sonra da Yaranışı Yandırmaz". Heç eşitmədim ki, bir bəşər desin: "Ağ Geyimli Mələk gördüm, Gözlərini yanmış gördüm". Əgər Mələk gözsüzsə, o, Mələk olarmı, kainatlar İşıq əhatəsində olmalıykən, zülmətdə olarmı?

Görəydi kaş, qapalı gözlər Yaradanını görəydi kaş. Görüb yanaydı ki, İşığa qovuşaydı kaş. Qorxma, İnsan. Gözlərindən qorxma, insan, sənə gözləri o Yaradan verib. Onun sən insana Verdiyindən qorxma, insan. Sən itirməyib taparsan. Tapdığından, Qovuşmalı olduğundan qorxma, insan.

25. 11. 2002

*

Birə Birdir O, Kainatlara Birdir O. Yaranışa Birdir O, Yaradanın Özüdür O. İşığın Özüdür O. Əbədi Özü, Əbədi Yaradandır O. Son yox, Yaranışın Əvvəlindən Yaranış Yaradandır O.

*

Ey bəşər, gördüyün planetlər sür'ətlə hərəkətdədir, həm yana, həm yuxarıya hərəkətdədir. O hərəkətə hər yaranmış varlıq uyğunlaşıbdır. Ona görə o sü'rət az hiss ediləndir ki, Ovalın daxili hərəkətdədir. Yə'ni, "oval" həndəsi quruluşda deyil, riyazi quruluşladır, riyazi hesabatdadır.

*

İlahiyyatdan nə dedimsə, İlahiyyatın elmi ilə dedim. Təxəyyüldən uzağam, təxəyyüllə deyə bilmərəm. Nə şair, nə yazıçıyam. Elmə aid nə deyə bildimsə, "Yaranış" Kitabından dedim. O, elə bir Mətnlərdir ki, tükənməyən Elmlərlədir. O Elmlər Yaradandan olmasa idi, zəka ilə gətirilən deyildi. Minilliklərlə cəhdlər çox olub, İlahiyyat Elmini araşdıran böyük dahilər olub. Amma onlar İlahiyyat Elminin qapısına çata biliblər, o qapının astanasından keçə bilməyiblər. Təxəyyüllə o Qapını açmaq istəyiblər, İlahiyyat qapısı təxəyyüllə açılmır. Nə qədər İlahiyyatçı alimlər var yer üzündə, əsl İlahiyyat Elminə hələ də təxəyüllə bir sətir belə gətirə bilməyiblər.

26.11. 2002.

*

Ey bəşər, Yaradanımızı dedim, görgünən; göz səninlə, zəka səninlədir, görgünən. Yerdə qalacaq vücudun, gözün. Sən indi Əbədiyyətini Görgünən. 25.11.2002

*

Düşün, ey bəşər, düşün: deyək ki, bir adada bir kişi, bir də onun qadınından ibarət cəmi bir ailə yaşayır. Maddi aləmdə İzdivacdan törəyib ilk bəşər. Mütləqdir ki, onlardan törəmiş övlad özünün ata-ana rənginə, çizgilərinə uyğun olsun. Onların öz xüsusiyyətlərindəndir o övlad. Müddət keçər, o ailəyə bir övlad da gələr. Yenə də o kişinin, o qadının, o cütün öz rəngi, yenə də öz üz çizgiləri. Üçüncü övlad başqa rəngdə, yad çizgilərdə gələ bilməz. Onda bu ailəyə böyük bir şübhə gələr. Bir ailədən ola bilməz ki, müxtəlif törəmə: biri qarabuğdayı, biri ağ, biri tünd qara, digəri sarı rəngdə olsun. Övladların başlarındaki tüklər ayrı, rəngləri ayrı, üzlərdəki çizgilər ayrı, xasiyyətləri də ayrı olsun. Bu halda o ailədə o kişi, o ailədə o qadın qəribəlikləri düşünməzmi? Yer üzündə o adadakı ilk ailə öz övladlarına "yad övlad" deyərək, ona uzaqdan-uzaq baxmazını?

Bir cütdən, İlk cütdən müxtəlif çizgili, müxtəlif görkəmli, müxtəlif xasiyyətli bəşər törəməz, törəyə bilməz. Törəsə belə, bu ailə əsl ailə ola bilməz. Bir ailənin izdivacından müxtəlif törəmə ola bilməz. Bir cütdən, müxtəlif irqlər törəməz.

Bir cütdən törəsə idi bəşəriyyət, cəm bəşəriyyət bir dildə danışıb, bir İrqdə olardı. Amma bəşər yer üzündə çox, İrqlər ayrı, ünsiyyət üçün danışıqlar yenə də ayrı. Dedim ki, düşünək, demədim ki, şübhə edək. 05.12.2002

*

Maddi aləmdə maddiliyə bağlanmış bəşər. Yalnız bir ailədən törəməz bəşər. Bir ailədəki atadan, qızdan, bir ailədəki bacıdan, qardaşdan törəməz bəşər. Mən Bəşəriyyəti dedim, heyvanat aləmini demədim. Yoxdur insan varlığında, insan yaddaşında, insan hissində qardaş-bacı izdivacı, ata-qız izdivacı. Öz varlığında da axtara bilərsən o cavabı, cəm bəşərdə yoxdıır o hiss, o ehtiyac. Yalnız iki ayrı-ayrı ailədən qohum olub, qohumlaşmış bəşər. 06.12.2002

*

Yer üzündə bayram olur, bütün yer üzündə olan dinlərdə bayramların müddəti olur. Maddi aləmdə, maddilikdə olan bəşər, bir müddət qidadan məhrum edərsə özünü, məhrum olar. Adları müxtəlif olsa da, məzmunu bir olur. Şərqdə "orucluq" deyilib o İcraata. Yer üzündə özünü qidadan uzaq tutan insan, sonda o icraatı

"bayram" sayar. Özünün Əbədiyyəti xatirinə o icraatı yerinə yetirər, qayıdacağı o Əbədiyyətə yer aləmində ikən özünü hazır edər.

Yer üzündə bir müddət "bayram"sa, Əbədiyyətinə qayıdan bəşəriyyət – Müqəddəsliyə qayıdan bəşəriyyət, Əbədi Bayramına qayıdar. Necə ki, Yaradanımız Bildirib: "**Əbədiyyətdə Əbədilik** (*Ölümsüzlük*) **var. Əbədiyyətdə qida yox, Əbədiyyətdə yuxu yox, Əbədiyyətdə Əbədilik var ki, maddilik yox. Mən Yatmaz, Cəm Ağ geyimlilər yatmaz, qida ilə qidalanmazıq**".

*

Hər Yaranış Elmdədir, nağılda yox. Kainat nağıl deyil, Elmlədir. Ağ Geyimli o Mələklər bəşəriyyət qarşısında Aciz deyil, bəşəriyyətə Tabe deyil. Onlar insanlara Yer üzündəki zəmanəyə uygun, insanların ümumi Təkamül dərəcələrinə uygun mə'lumatlar verərlər. 06.12.2002

*

Cavid Əfəndim dedi ki, "Bu, nə cəbrdir, bilməm, gələr-gedər bu zavallılar?".

Ömər Xəyyam dedi ki, "Keçərmiş mənsiz də dünyanın işi. Söylə, əcəba, mən nə üçün bu cahana gəldim?".



Vahid dedi ki, "Xoşbəxtik, xoşbəxt. Bu dünyaya gəlirik ki, Əbədiyyətə dönək. İlkimiz kimi, Müqəddəsliyə Müqəddəslərin arasında bir duruşda, bir sırada durmaq üçün dönək. Yaradanımızın Önündə Durmaq üçün dönək, Oraya bir Ağ Geyimli kimi dönək. Nədir gəliş, nədir qayıdış? – "Bəşərilikdən İlkimizə, Müqəddəslər arasında durmaq üçün dönək". 07.12.2002

*

Yaradanımız İlki Yaratdı. İlki Gözəllikdə Yaratdı. Gözəllik Yaratmadı, İlki Yaratdı. İlkin əvvəlini gözəllik üçün Yaratdı.

Baxdım ətrafıma, baxdım Kainatlara, bax~dım hər varlığa. Baxırdım ki, çirkinlik görəm, görə bilmədim; olmayanı görə bilmədim. Hər bir varlığı Gözəllikdə gördüm, gözəlliklə əhatəli gördüm. Hər materiyanı, hər varlığı, hər bir Yaranmışı Gözəlliyin özündə gördüm. 07.12.2002

*

— "Kamillik" harada yazılıb, kamillik haradadır?

— Kamillik sənin varlığında, xeyirxahlığında, rəhmində, ətrafına sevincindədir, elmindədir.

— Bəs, cahillik haradadır?

— Cahillik isə ətrafımızdadır. Hansı daha yaxşıdır?

Elə insanlar gördüm ki, dedim: "Eh, eh, ey İnsan, axı sən İnsansan!"

*

Mənə baxıb gülmə ki, aqibətimi görüb gülmə ki, Yaradanımız gülməli deyil. Sən Kainatlara gülmə ki, İşıqdan Gələnlərin eyni bir ömrü var, sən o İşığa gülmə ki... Məni qovalayıb gülmə ki. İndi qovalanacaq, sonra arzu olunacağam. Kainatlara indi gülmə ki... Vay o gündən ki, Kainatlar bəşərə "gülsün".
İndi "sən" Kainatlara gülmə ki...

*

Başla dil vəhdətdədir. Baş (beyin, kəllə) düzgün danışanda, dil də düzgün danışandır. Nədən düz danışan əziyyətdədir? Çünki, ətraf yalanlarladır, yalan danışmada, əziyyət verməndədir.

*

İnsan "böyük" kimi dünyaya doğulmur. İnsan Böyüklüyə Qalxır.

*

Qardaşım Fikrət dedi ki, "Qocalıq yoxdıır, ucalıq var". Qocalırsan? Yox, Ucalırsan! Qocalıqdan Ölümsüzlüyə, Əbədiyyətə Cavanlığa ucalırsan.

*



Yaranışdan "Yaranış"la gəldim, "Yaranış" dedim. Bilənlərə dedim. "Bilib", bilmək istəməyənlərə də dedim. Amma ki, dedim.

*

Gördümsə O Kainatları, gördüm. Bu yeri gördüm, dörd bölümdə gördüm. Yer bir idisə, dörd yanını gördüm. Kainatlar dörd bölümdə, bir Günəşin ətrafı da dörd bolümdə. Planetlərin hərəkəti (günəş ətrafında) dörd bölümdə, yan hərəkətli dörd bölümdə. Yaradan Ətrafında kainatlar da dörd bölümdə.

*

Nə olaydı, bu Yer planeti necə olaydı? – Bu Yer planeti elə bir yer olaydı ki, mehribançılıqlar başda, rəhm qəlbdə, xeyirxahlıqlar addımlarda, sulh gözlərdə, sədaqət biri-birinə uzanmış əllərdə olaydı. Onda nələr olardı? – Dillər bal olardı, nəfəslər rahat olardı, istirahətlər isti olardı. İşıqlar çox, ruzilər rəvan olardı. Dərmanlar əvəzinə içməli, şirin sular olardı. Daşlar əvəzinə yaşıllıqlar olardı. Onda bəşəriyyət bu cənnətdən o cənnətə köçmədə olardı. Əzablar insan varlığından yox olardı. Xoşbəxt Yaranış, xoşbəxt bəşər onda olardı.

*

Mən bu dünyaya əli boş gəlmişdim. Bu dünyadan isə əli dolu gedərəm.

*

"Attesizm" – danışıqda nəzakət və gözəllik, zəriflikdir (*qədim Yunanıstanda Attık şəhərinin adından alınmışdır*).

"Attikalı" – nəzakətli, yenə də zərif.

"Attika duzu" isə – acı tə'nə, lağa qoymadır.

Qardaşım Fikrət, bir adın üç mə'nasının isə, yenə də bir mə'nası var.

Mişel Nostradamus bir üslub saxlayıb: hər nəyi üç görübsə, yalnız onda məktub yazıb.
Çünki bu bir «Anoqrammadır».

*

Yaradanımızdan heç bir şey istəmədim, çünki, "O QƏDƏR" Vermişdi ki, başqasını istəməyə daha üzüm gəlmədi.

*

Dövlətlinin gözləri qapıda, kasıbın gözləri kainatlarda qalar.

*

Əvvəli görmür, sonu bilmir, hallardakı anı görür.

*



Həqqi görmək istəyirsən, görgünən. Yer aləmində həqq yoxdur. Həqq Kainatlardadır.

Kainatlara qalx ki, Həqqi gör. Yerdən isə Kainatlar görünmür. Kainatlardan həm planetlər, həm də yer aləmi daha rahat, olduğu kimi görünür.

*

Zər, zər, zərdir bu, Zərrə duşdü ki, zərdir bu.
Zər, zər, zərdi bu, eh Ey-Şüa da zərdi ki.

Mah, mah mahdı ki, gecəyə ad İşıqdır ki.

Zər, zər, zərdi ki, Sirr- Hara, Bu da bir zərdi ki.

Tək, tək, təkdi ki, hamisi bir İşıqdadır ki.

Ad, ad, addır ki, hamisi bir addadır ki.

Ad, ad, Addı ki, əvvəlimiz bir, sonumuz bir addadır ki.

Zər, zər, zərdir ki, bunlar bir Şərqdədir ki.
Zər, zər, zərdi ki, Azər də bir zərdi ki.

Eh Zər də, hamisi Bir Zərdədir ki.

Axı, tanı ki, Yaradandan hamisi bir İşıqdan Paylıdır ki...

*

"Günah" yoxdur, çünki günahkar yoxdur. İnsan üçün səhv var. Səhvi dərk etsən, səhvi təkrar etməzsən. Səhvi təkrar etməyib Həqqi

dərk edərsən. Səhvsiz bəşər olmur, səhvsiz Bir Yaradan olur.

*

Ətraflimda o qədər yalan gördüm, yalançı insanlar gördüm ki, özüm yalan danışa bilmədim. Sevindim, yalan danışa bilmədiyimə sevindim.

*

Əllərimdə bir İşıq, vücudumda bir İşıq, varlığımda bir İşıq. Yaradanımdan bir Paydır o İşıq. O İşıqla gəldim, O İşıqla gəlirəm. Hər qapıdan O İşıqla keçərəm, İşığı gətirərəm.

Rahatçılıqları, uğurları ona görə gətirərəm. Ümidsizliklər arasında, ümidi ona görə gətirərəm. O İşıq mənimlədir, O İşıqla gələrəm. Sənin inamın üçün gəlməmişəm, sənə İnamı gətirmişəm, Yardanımızın Deyimlərini gətirmişəm. Gör, önündəyəm, görgünən, Gizli deyiləm, görgünən.

*

Deyiblər Onlar, "Meracların" istiqamətlərini "Onlar" deyiblər. O Böyüklüyü başdan demək olmaz. O Mütləqə Yüksəlmədən, O Mütləqi demək olmaz. O Mütləqdən Seçilməyənlər, O Mütləqi deyə bilməz.

*



Bizə baxıb dedilər ki, onlar "məhv oldular".– Biz məhv olmalı idik ki, sonda məhv olmayaq.

*

"C"-dır, "D"-dır, "U"-dur – bu, bir müəmmadır. "Səkkizdə birdir". Səkkizdə birə açım var: "Azad ol, Azad ol, Azad ol" deyənə o səkkizdə birdən azad olma var! Dörd səmtə azad olma var. Vücudun iynələnməsi, üşünməsi var. Azad olmağın var. Bükülü, örtülü yazılardan, əzab vərən o yazılardan azad olmağın var.

*

Sənin iki gözün iki yan beyninin sonluğuna bağlıdır. O, yorğunlaşar, o, yatar, orta beyin yatmaz. Orta beyin Kainatın dörd səmtinə bağlı, Ovalın özünə bağlı, Zərrələrin Yaradandan pay-pay Paylarına bağlı. İki yan beyni by altı künclü nöqtələri olan orta beyinə bağlı. Orta beynin altı künclü nöqtələri yan beyinlərin varlığındaki nöqtələrin altı səmtinə bağlı. Bir arı ailəsinə, bir arı pətəyinə oxşarında bağlı. Baş kəllədə bölünüb. Altıya bölünüb. Bir nöqtə altı tilə, altı yanlığa bolünüb.

Yaradan Yatmaz, Zərrələr dayanmaz, beyin (baş, kəllə) heç vaxt susmaz. "Yatsa" əgər, vücudun özü yatar. Yatan vücud Kainatlara, ilk İşığına, Əbədiyyətə qalxar. Beyin yenə yatmaz. Beyindəki yaddaş nöqtələri heç Əbədiyyətdə də

yatmaz. Yatıb bu həyatda etdiklərini "O həyatda" gizlədə bilməz. Ozü dayanar, qorxuda dayanar. İki çiyindəki kiçik Ağ geyimlilər (sağ, sol) O Ağ Geyimİi qarşısında bir-bir danışar. Yaradan isə heç bir pis halı Bağışlamır. Bağışlasa idi əgər, bəşər bu işə Təyin Edilən o Ağ Geyimli qarşısında dayanmazdı.

*

Yaranışın ilk anında Yaradanımız Söz Deyib, "Yaranışdır, Yaranışdır, Yaranışdır" Deyib. Kainatlara Söz Deyib, Səs Deyib, Yaranacaqlara Söz, Vəd Verməyib.

*

Beyin sözlüdür, səsi eşidər ki, sözlüdür. Beyin susmaz, söz deyər. Bu həyatda məkrini gizlin də saxlaya bilər bu bəşər. "O həyatda" beyin susmaz. Dili lal olanın beyni yenə susmaz, yaddaşı yenə də susmaz.

*

Ey bəşər, Yaranış bir Zərrə, bir İsti, bir də Su birliyindədir. Bu üç varlıq birlikdə olub materiyanın, varlığın ilkini təşkil edər. Bu üç birliyi bir birlikdə gördüm. "Biz yığışmasaq bir yerə, olmaz, Yaranış olmaz. Yaradan Yığmasa, Təyinləşdirməsə, biz birləşməsək, muhit olmaz, Yaranış olmaz. Varlığın istəyi olsa da, yaranış olmaz. Varlıq özü-özünü yarada bilməz".



*

Nə toyuq, nə yumurta ilkdir. Muhit yox, Zərrə ilkdir. Yaradanın İşıq Payı, Zərrə Payı ilkdir.

Nə düyü, nə buğda ilkdir, Zərrə ilkdir.

Nə oğul, nə uşaq, nə Ağ Geyimli, nə muhit, nə də Təbiət yaradandır.

Hər cisım, hər varlıq, hər insan Yaradanın Özünün Təyinləşdirdiyi Zərrədən Yaranışdır.

Yaradan yoxsa, Zərrə, muhit, kütlə yoxdur!

Yaradan yoxsa, Yaranmışın özü yoxdur!

*

Əvvəl gənc, sonra cavan idim. Cavanlığımda Təkliyimdən tək idim, yer üzündə tək idim. Kainatlarda çox idim, Onlar arasında rahat idim. Yaradanımın Baxışı ilə inamlı idim, ümidli idim.

Qəribədir, atam da tək idi. Naxçıvanın Qaraçuq kəndində, Məmmədbağırın ailəsində, atam Zeynal tək idi. Bacısı Məstan var idi, nənəm Leylan var idi, amma atam Zeynal tək idi. Atamın dörd övladı var idi, bir oğlu İbrahim var idi, bir də mən – tək Vahidi var idi. Anamın tək bir oğlu – Fikrəti var idi, bir

də mən tək Vahidi var idi. Qəribədir, atam-Zeynal da "tək" idi. 01.11.2002

*

Naxçıvandan Bakıya baxdım, həsrətlə «vətən» dedim. Bakıya gəldim. Bakıda ikən, yenə vətənim Bakıya həsrətlə baxdım. Bakım da əlçatmaz, şirin bir nağıl oldu. Demə Vahid, vətənin yer yox, Kainat imiş. Oradan gələn oraya qayıtmalı imiş. 01.11.2002

*

Bir şair, bir elm (*geologiya elmı*) adamı olan Oktay Rza müəllim var Bakıda. Onunla fikir bölüşdürdük, elmdən danışdıq, kainatlardan bəhs etdik, bu yer həyatını danışdıq. Oktay müəllim dedi ki: "Vahid müəllim, nə qədər sadə imişsən; bu qədər sadəlik olmaz. Bu sadəliyin səni məhv edəcək". Cavabım: "Yox, Oktay müəllim, sadəliyim məni xilas edəcək" olmuşdu.

*

Bir aləmdəyəm ki, Mütləqdəyəm. Mütləqdən gəlmişdim ki, Mütləqdəyəm. Yer aləmində, –- Müddətdəyəm. Vaxtda yox, zamanda yox, Müddətdəyəm. Müddətim qurtarar ki, Mütləqdəyəm. Mən yenə də Əbədiyyətimdəyəm.



*

Əlli yaşıma, ömrümün o aprel ayına çatdim. Əlli yaşımdan Yaradan İşığına qovuşdıım. Aləmləri, Kainatları, İlahi Elmi onda dərk etdim. Üzümü tutdum Kainatlara, üzümü tutdum Yaradana: "İlahi, mən ölü idim, dirildim. Əbədiyyəti indi bildim. Sənin Deyimlərini indi bildim, illər ərzində mənə bu anlamları Sən Bildirirdin, İşığına indi qovuşdum". 20.09.2002

*

Vahidliyimdən, yenə Vahid oldum. Bəs niyə mən Vahid oldum? Vahid Yaratmışdı ki, Vahid oldum. Adın mə'naşı varmı? Var! Adsız mə'na olmur.

*

Yer aləmindən qorxmadım, çünki qayıdacağım Əbədiyyətimdən qorxmadım.

*

Məni gec başa düşəcəksiniz, çünki Məni sonra başa düşəcəksiniz. 20.09.2002

*

Uşaqlıq dövrüm, gənçlik dövrüm Kiçik Qafqaz sıra dağlarının Şərqlə Qərb arasında bir sərhədində, Gəmiqaya ilə Ağrı dağ arasında,

axar dağ çayı Arazın sahillərində, Naxçıvanda, yə'ni Azərbaycanda keçib.

O dağların, o dağ laylarının istiqaməti var. O dağ süxurlarının Şimali-Şərqə doğru bir düzülüşü var. O dağların göy rəngi var. Kainatda var Ağ Kəhkəşanın düzülüş istiqaməti, o dağların da var öz istiqarnəti.

*

Ölü – özü üçün ölü istər, ölü axtarar, məşğuliyyəti də ölü ilə keçər. Diri – Kainatlara qalxar, Əbədiyyəti deyər. Əbədiyyət ölülərin dünyası deyil. Əbədiyyət də Dirilər üçündür, Dirilərindir. Yaranış aləmini dedim, "ölülər aləmini" demədim. Yaranış var ki, ölüm yoxdur. Ölüm olmuş olsa idi, Yaradanımız ölü aləmi üçün, Yer insanları arasına ölümə aid mətnlər Göndərərdi.

*

Halal nədir, haram nədir? Halal varmı, haram varmı?

Heyvanat aləmi otla qidalanır. Bəşəriyyət otla qidalanmır, taxıl, meyvə, göyərti ilə bərabər, əsasən heyvanat məhsulları ilə bəhrələnir. İnsan yalnız ot yeyib, otla qidalanmır. Ot heyvanata bir qidadır. İnsan otla qidalanmırsa, bu yabanı ot ona harammıdır? Yox, ot insana ziyan gətirən, insanı zəhərləyə biləndir.



Çəkidə, tərəzinin özündə halal varmı, haram varmı? Nə halal, nə haram vardır. İnsanın səhvləri vardır. Çəkidə də, həyatda da düz danışmasan, düzgün olmasan, öz qədərini azaldacaqsan, uğurlarını azaldacaqsan, rahatçılıqlarını azaldacaqsan. Etmə, bəşər, etmə.

Yalan danışma, ziyankar olma, paxıl, məkrli olma. Olma, bəşər, olma. Yoxsa, özündə Öz qədərini azaldacaqsan. Ümidsizlikdə özün olacaqsan, uğursuzluqlarda özün olacaqsan.

Kiminsə ehtiyaclar içərisində olduğuna, mərhumiyyətlərdə olduğuna baxıb sevinmə, ona gülmə, bəşər. Sən bəşərin gözündə o, bir mərhumiyyətdədir, Yaradan Baxışında isə rəvanlığın, qədərlərin bərabər bölümünün bir başlangıcındadır.

*

Araq haram, zəhər halalmıdır? Zəhərlə bəşər qidalanmır. Bunda halal varmı, haram varmı? "Halal" bildiyin – düzlüyün, "haram" dediyin – səhvindir. Etmə, bəşər, etmə. "Araqdan uzaq ol" demişlər; biz də dedik. Bununla zəkanda, varlığında İşıq zərrələrinin həmahəng hərəkətini pozma dedik; varlığına, evinə, əşyalarına, uğurlarına həmahəngliyi pozma dedik. Etmə, bəşər, etmə, özünü Kainatlarda hərəkətdə olan Zərrələr axımının həmahəngliyindən uzaq etmə. Etmə, bəşər, etmə.

Qanla gəlib, qan gətirmə. O nə varlıqdır ki, qanla gələ, qan gətirə? Ahənglər hərəkətinə ahəngsizlik gətirə, uğursuzluqlar, mərhumiyyətlər, xəstəliklər, ümidsizliklər gətirə? Etmə, bəşər, etmə. Yaradanımız Yaratdıqları qarşısında Aciz deyil. Səhvləri etmə, bəşər, etmə.

Etdiyin hər hansı bir işi minnətə çevirib minnətli etmə. Yaxşılığı etmək çətindir, yaxşılığı etməyə bacarıq gərəkdir. Ziyankar olma, bəşər, olma, paxıl olma, bəşər, olma. Bununla özünə əzablar, xəstəliklər istəmə, bəşər, istəmə. Bu günkü uğurların hələ sənin düşündüyun "uğur" deyil, bu günkü mərhumiyyətlərin hələ mərhumiyyətin özü deyil. Uğur sənin özünün deyil, "uğur" bildiyin — bir zəmindir. Mərhumiyyətlər sənin deyil, "mərhumiyyətlər" bildiyin də bir zəmindir, bir başlangıç, bir də sondur.

Xeyirxah ol, bəşər, xeyirxah ol; mehriban ol, bəşər, mehriban ol; düzgün ol, bəşər, düzgün ol. Onda biləcəksən halal nə, haram nədir; düz nə, səhvlərin nə, kədərin nədir; uğurun nə, uğursuzluqların nədir; mərhumiyyətlərin nə, "günah" dediyin nədir. Nə halal, nə haramdır, nə də günahdır, — bəşər üçün etdiyi səhvlərdir. Etmə, bəşər, etmə; düşün, bəşər, düşün, ağır, gobud səhvləri etmə, bəşər, etmə.

Yaradanımız Yaratdıqlarının səhvlərini Bağışlamır. Yaradanımız Bağışlasa, bu Yer aləmi qarışar; Bağışlasa, Kainatlarda Ahənglər, ardıcıllıqlar qarışar, "o dünya" dediyinizə qayıdan bəşərin etdiklərinin qədəri qarışar, Ağ gcyimlilərin İcraatı qarışar, Yaranacaq yaranış ardıcıllığı qarışar. Qarışıqlıqlardan yenə də qarışıqlıq, Kainatlar qarışıq, yaradıcılıq qarışıq alınar; Kainatlarda Vəhdətsizlik, Ahəngsizliklə qarışıqlıq alınar. Yaradanımız Yaratdıqlarının vəhşiliklərini, ac gözlərini, paxılhğını Bağışlamır. Qədərləri Özü Bölür, bəşərin səhvlərini Bağışlamır. Səhvləri etmə, bəşər, etmə.

Kainatlardan, Müqəddəslikdən uzaq olma, bəşər, olma. Hərəmizin İlkimiz Müqəddəs Adamdır, bu yer üzündə Adamdır. Törənmişik o Müqəddəs Adamdan. İlkindən uzaq olma, bəşər, olma, Müqəddəslikdən uzaq olma, bəşər, olma. Adamdan törənmiş bəşər öz adamlığını saxlar. Müqəddəslər arasına, Kainatlara dön, bəşər. Müqəddəs Ağ İşığa, Zərrələr axımı ilə Öz İlkinə qovuş, bəşər. Sevin, bəşər, sevin; bəşər, İnsani Yaranışda olduğuna sevin. Vəhşiləşib vəhşi olma, yırtıcılaşıb yırtıcı olma. Təkrar yaranışın var. Yırtıcılar arasında, vəhşilik arasında olma. Yırtıcılar muhitinə düşmə, yırtıcı yaranma. Yoxsa yırtıcı heyvanat səni məhv edəcək, bundan da sonra daha kiçik yırtıcı aləminə düşərsən.

Bəşəriliyin Ucadır, insanlığın Ucadır, İlkinə, Müqəddəslər arasına qayıdışın Ucadır, İşıq arasında, Əbədiyyətdə Azad olmağın Ucadır.

*

Yaranışın torpaqda deyil, qalmağın torpaqda deyil. Yaradandan yaranan, Zərrədən yaranan İşıqda, Əbədiyyətdədir, torpaqda deyil. Torpaq – mühitdir, İlkimizə qayıdış isə Əbədiyyətədir, Yaradan İşığına, Müqəddəsliyədir. Müqəddəslərdən Yaranan, Müqəddəslər arasına dönmədədir. Etmə, bəşər, etmə; bəşər ikən özünü Müqəddəsliyə Qayıdışdan uzaq etmə.

Kişi, qadın Müqəddəslik arasından gəlib; Özünü Müqəddəslər arasından uzaq etmə bəşər, etmə.

*

Ey insan, başda qorxu yoxdur. Qorxu ürəyin sağ bölümündədir, sevinc ürəyin sağ bölümündədir, kədər orada, ümidsizlik orada, inamsızlıq da ürəyin sağ bölümündədir. Qorxu başda deyil və başla deyil. Ürək bağlıdır, vücudun boyun hissəsində, sol tərəfdə bir vətərə bağlıdır. Vücudda kədər, sevinc, ümidsizlik o vətərin bir nöqtəsinə qədərdir. Baş qorxunu, kədəri, ümidsizliyi o nöqtədən sonra qəbul etmir. Vücud başa zorakılıq etmir. Ey insan, ürəklə başın vəhdətini sən pozanda, mə'də ortada qalar. Mə'də ortada qalanda, düşünməyə yer qalmır, vücud ləng olur. Bağla, bəşər, vücudunda bir üçlüyü bir birliyə bağla. Ürəyi başa, mə'dəni ürəyə bağla. Vücudunu bir birliyə bağlasan, qorxu nədir,



kədər nədir bilməzsən. Onda vücudun həmişə sevincdədir, başın düşünə biləndir.

*

Ey bəşər, Kainatın rəngələri: Ağ – sabit, mütləqdir, Göy – nizamlayandır, Boz – əbədidir, ondan hər hal süzülüb keçəndir və efiri təşkil edəndir; Qırmızı – özündə toplayıb, hissələrə bölüb, yenidən Ağ sabit mütləqə qovuşdurandır.

«Nərgiz-R» Nəşriyyat-Poliqrafiya firması. Baş direktör : Hidayət Musabəyli (Musayev)

«Nərgiz» nəşriyyatı.

Yığılmağa verilmişdir: 15.05.2003.
Çapa imzalanmışdır: 26.05.2003.
Kağız formatı: 60x84 1/32.
Həcmi: 1,75 çap vərəqi.
Tiraj: 500 nüsxə; Sifariş: 364.